# Mentalitetin cəmiyyətdə rolu: milli və ictimai mentalitet

**Fəridə Cəbrayilova**
*Sumqayıt Dövlət Universitetinin müəllimi,*
*fəlsəfə üzrə fəlsəfə doktoru*
**E-mail:** cebrayilovayilova_fira@mail.ru

**Rəyçilər:** f.ü.e.d. S.Y. Hüseynov,
f.ü.f.d. V.A. Ömərov

**Açar sözlər:** mentalitet, cəmiyyət, milli mentalitet, qloballaşma, ictimai mentalitet, mədəniyyət, ənənə və innovasiya
**Ключевые слова:** менталитет, общество, национальный менталитет, глобализация, общественный менталитет, культура, традиция и инновация
**Key words:** mentality, society, national mentality, public mentality, culture, innovation and tradition

Mentalitet (latıncadan tərcümədə mens və ya mentis – ruh, qəlb) – hər hansı sosial və etnik qrupa, millətə, xalqa, xəlqiliyə xas olan əqli, emosional, mədəni xüsusiyyətlərin, dəyər istiqamətlərinin və mexanizmlərinin məcmusudur. Mentalitet kollektiv təsəvvürlər və düşüncə tərzini əks etdirir.

Hesab olunur ki, fransız filosofu, etnoloqu Levi-Bryül (1857-1939) ilk dəfə olaraq "İbtidai cəmiyyətlərdə mental xüsusiyyətlər" və "İbtidai təfəkkür" əsərlərində bu termindən istifadə edib. Levi-Bryül belə qənaətə gəlir ki, eyni cəmiyyətdə və eyni şüurda həm məntiqi, həm də məntiqəqədər şəkildə müxtəlif təfəkkür strukturları mövcuddur [1, 320]. İngilis dilində tam qarşılığı "sürü davranışı və düşüncəsi" olan mentalitet həmçinin ingilis neyrocərrah Uilfred Trotterin (1872-1939) "Sülh və Müharibədə sürü instiktləri" kitabında da araşdırılıb. [2, 113]

Tədqiqatçılar mentalitet problemi ilə bir çox ictimai və humanitar elmlərdə - tarix, fəlsəfə, sosial psixologiya, etnologiya, kulturologiya, politologiya və digərlərində üz-üzə gəlirlər. Son dövrlərdə bu problemə marağın artması müxtəlif mövqeli anlayışların yaranmasına gətirib çıxarır.

Mentalitetdən söhbət getdikdə bir qayda olaraq müxtəlif dövrlər — orta əsrlər, yeni dövr və s. üçün insanların zehniyyət fərqliliyi, milli xarakterdən danışdıqda isə ilk növbədə etnik müxtəlifliyi – Azərbaycan milli xüsusiyyəti, fransızların milli xarakteri və s. nəzərdə tutulur. Mentalitet bütöv sistem olaraq insanın düşünmək, hiss etmək, dünyanı konkret şəkildə, müəyyən dəyərlərə, mədəni kodlara uyğun qəbul və ya rədd etmək kimi meyllərini şərtləndirir.

Etniklik, millət, milli xarakter, dil, milli ideya, milli ruh bu gün populyar mövzulardan biridir. Müasir dünyanın ən mürəkkəb problemi – cəmiyyətin milli-etnik problemidir. Buna görə də bu gün milli mentalitet yaşamın ağrılı nöqtəsinə çevrilir. Heç bir insan, hətta əkizlər belə digərinin eyni deyil, yaxın oxşarlıq ola bilər, lakin mütləq eynilik mümkün deyil. Millətlər, xalqlar da belədir, xarici bənzərlik olsa da, zövq, xarakter, hiss və dünyagörüşləri fərqlidir. Çox uzaq getməyək, bizimlə eyni kökə malik, qardaş, bir millət iki dövlət hesab etdiyimiz Türkiyə türkləri ilə Azərbaycan türkləri arasında nə qədər yaxınlıq, adət-ənənə oxşarlığı olsa da dünyagörüşlərində, ətraf aləmə münasibətdə kəskin təzadlar mövcuddur. Bunun da özünəməxsus obyektiv və sübyektiv səbəbləri var ki, bura ölkələrin uzun müddət daxil olduğu siyasi sistem, inzibati idarəetmə üsulu və s. aiddir. Hətta bütöv xalqı götürsək

belə, hər kəsin özünün də xüsusi mentaliteti var. Təbii ki, belə müxtəliflik və özünəməxsusluq olmasaydı, o zaman yer kürəsində minlərlə xalq deyil, yalnız dünya xalqı mövcud olardı.

Milli mentalitet özündə müəyyən xalqa, millətə xas olan dəyərlər sistemini əks etdirir. Hər bir xalqın milli mentaliteti həmin cəmiyyətə mənsub insanların intellektual, əqli, tarixi, geosiyasi, iqlim, etnoqrafik, etnik və məişət şəraitinə uyğun xarakterlərinin məcmusudur. Milli mentalitet birdəfəlik və daimi qazanılmır. O əsrlərlə formalaşır və nisbətən dayanıqlı, mühafizəkar məzmuna malikdir. Lakin eyni zamanda zənginləşmək və möhkəmlənmək bacarığını da ehtiva edə bilir. Milli mentalitet xarakterinə görə yekcins deyil, onda həm pozitiv, həm də neqativ xüsusiyyətlər müşahidə olunur. İnsan özünə normal yaşayış təmin etmək üçün daima axtarışda və tədqiqatdadır. Yəni həyatın sirrini açmaq istəyir. Böyük rus mütəfəkkir İ.F.Dostoyevski qardaşına yazdığı məktubda bildirirdi ki, o, bu sirri çözməklə məşğuldur, çünki insan olmaq istəyir [3, 67]. İnsanın sirrini çözmək xalqın mentalitetini dərk etmək deməkdir. Milli mentalitetin mahiyyətini dərk etmədən heç bir fərdi tam anlamaq mümkün deyil.

Mentaliteti cəmiyyətin coğrafi, geosiyasi və sosial faktların təsiri ilə birlikdə təyin etmək mümkündür. Dəyərlər öz yaradıcısından ayrı mövcud ola bilməz. Heç bir xalq öz mədəni ehtiyatından, ənənəsindən, etik normalarından və digər dəyərlərindən kənarda mövcud deyil. Milli mentalitetə elmi yanaşma yalnız Yeni dövrdə yaranır. Fransız maarifçi Ş.Monteskyü yazırdı: "İnsanları çox şey idarə edir: iqlim, din, qanunlar, idarəetmə prinsipləri, keçmişin nümunələri, adətlər, bunların nəticəsi kimi xalqın ümumi mənəviyyatı meydana gəlir" [4, 412].

Mentalitet özündə böyük sosial qrupların fundamental və dərin, eyni zamanda dəyişikliyə cüzi meylli psixologiyasını əks etdirir. Siyasi, iqtisadi təsirlər mentalitetdə yalnız daxili keyfiyyət dəyişikliklərinə səbəb olur. Xalqların tarixi təşəkkülünün təhlili göstərir ki, hər millətin, xalqın gündəlik həyatında özünü büruzə verən xüsusi mentaliteti var və o təkcə milli adətə, ənənələrə, tarixə görə deyil, həm də xalqın vəhdətində, maddi və mədəni dəyər mübadilələrində formalaşır. Baxmayaraq ki, mentalitet hər hansı etnosun spesifik psixi halının təzahürüdür, əgər siyasi-iqtisadi vəziyyətlə əlaqədar determinasiyaya uğrayırsa, deməli cəmiyyətin bütün sferalarına təsir edir.

Mentalitet insan mənəviyyatına müvafiq olaraq informasiya xarakterli təzahürdür. İstənilən informasiya kimi o da əksolunma, tənzimlənmə funksiyasına malikdir. Subyektin aktivliyini tənzimləyərək mentalitet mövcud olan sosial münasibətləri saxlamaq və ya dəyişmək iqtidarındadır. M.Y.Şevakov qeyd edirdi: "Mentalitetin ictimai şüurdakı funksiyası stabillik deyil, dəyişiklik mexanizmini təmin etməkdən ibarətdir" [5, 21 ].

Mentalitetin cəmiyyətdəki rolu əsasən onunla müəyyənləşir ki, o, makro və mikro mühitdə yayılaraq həyat fəaliyyətinin konkret istiqamətlərini xarakterizə edir. Cəmiyyətin mentaliteti bir qayda olaraq şəxsiyyətin mentalitetinə çox təsir edir. Onun təsir dərəcəsi konkret olaraq hər bir fərdin cəmiyyətin ictimai həyatında nə dərəcədə iştirak etməsi ilə bağlıdır. Mentalitet cəmiyyətlə qarşılıqlı fəaliyyət göstərir. Bu qarşılıqlı fəaliyyətdə əsas rol mentalitetin məzmununu öyrənən, onun inkişafına təsir edən cəmiyyətin bir hissəsinə — sosiuma məxsusdur. Buna görə də mentalitet müəyyən mənəvi, iqtisadi, mədəni, siyasi səviyyəyə uyğun gəlir və bununla birlikdə inkişaf edir. Modernləşmə prosesində əhəmiyyətli rol oynayan mentalitet cəmiyyətə yad münasibətləri və vərdişləri aradan çıxarır və beləliklə, insanların birləşməsində vacib funksiyanı həyata keçirir.

Mentalitetin cəmiyyətlə bağlı komponentlərinə mənəvi, iqtisadi, dini, siyasi amillər daxildir. Mentalitet özündə ikili mövqe — ənənə və yeniliyi təcəssüm etdirir. O bir tərəfdən

stimulaşdırıcı tərəqqi, digər tərəfdən həddindən artıq böyük və sürətli ictimai dəyişikliklər amilidir. Eyni zamanda balanslaşma, tarazlıq da zəruri fenomenlərdir. Hədsiz yenilik, məsələn tələsik düşünülmüş layihələr və ya hədsiz mühafizəkarlıq da cəmiyyətdə mənfi əlamətlərlə xarakterizə olunur: durğunluğa, həll olunmayan problemlərin yığılmasına, cəmiyyətin dağılmasına gətirib çıxaran destruktiv proseslərə səbəb olur. Super dövlətlərin dağılması bu nümunələrdən hesab oluna bilər.

Mentalitet fərdi və qrup mədəniyyətinin, subyektin mədəni strateji proqramı olaraq cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərir. Vətəndaş cəmiyyəti – cəmiyyət və mədəniyyətin birgə yaradıcılıq məhsuludur. Şəxsiyyət və cəmiyyət problemlərinin vəhdətinə zidd istiqamətlənən fenomenlərdən biri də mürəkkəb və yekcins olmayan mentalitet problemidir.

Mentalitet istənilən sosiumun mövcud xarakteristikası kimi nəzərdən keçirilir, belə ki, insan sosiomədəni subyekt kimi yalnız obyektiv dünyaya deyil, həm də bu və ya digər mentalitetin yaratdığı dünyanın intersubyektiv mənzərəsinə daxildir. Hər bir xalqa daxil etnosların və ya bütöv xalqın strukturunu və səciyyəvi xüsusiyyətlərini dəqiq öyrənmədən cəmiyyətin və dövlətin modernləşməsi mümkünsüzdür. Köklü dəyişikliklər zamanı insanların mental xüsusiyyətlərini, xüsusilə mentalitetin dəyər mexanizmini nəzərə almaq lazımdır. Köklü islahatlar həmişə xalqın həyatında əsaslı dəyişikliklərə səbəb olur, bu dəyişikliklər özünü dəyər, təsəvvür, norma və inanclarda büruzə verir.

Bəşər sivilizasiyasının müasir inkişaf mərhələsi qlobal proseslərin sürətlənməsi, beynəlxalq dünyanın yüksək dinamizmi, xalqların və dövlətlərin qarşılıqlı əlaqələrinin və bir-birindən asılılığının möhkəmlənməsi ilə xarakterizə olunur. Bir sıra hallarda mentallıq cəmiyyətin inkişafının deyil, tənəzzülünün təşəbbüsçüsü olur. Bu özünü daha çox totalitar rejimlərdə göstərir. Diktator və ya hakim elita ətraflı düşünülmüş dezinformasiya vasitəsilə kütləvi düşüncəyə, bəşəriyyətin və xalqın mənafeyinə zərbə vuran zehniyyət aşılayır. Buna misal olaraq ari irqi tərəfindən uydurulmuş intellektual üstünlük ideyasını göstərə bilərik.

Onu da qeyd etmək yerinə düşər ki, bizimlə düşmən mövqedə olan Ermənistan dövlətinin "özünəməxsus" mentaliteti nəticə olaraq sonda onun özünə, öz millətinə qarşı çevrilsə də, daha çox qonşu xalqların mənafeyinə toxunur və istər-istəməz öz maddi və mənəvi sərvətlərini müdafiə etmək üçün tarix boyu bu mentaliteti daşıyan toplumla üz-üzə gəlmək məcburiyyəti yaranır. Özgə torpağına, maddi və mədəni sərvətlərinə tamah, iddia əsrlər boyu bu millətin xisləti, mentaliteti olub və olmaqda da davam edir.

İctimai həyat cəmiyyətin daxili, xarici şərtlərinin təsiri ilə formalaşır. Təbiət və iqlim, demoqrafik və siyasi quruluş, din və mədəniyyət bu şərtlərə daxildir. Bunların uzun müddət cəmiyyətdə mövcudluğu ictimai dünyagörüşü və ya mentalitetin yaranmasına gətirib çıxarır. İctimai mentalitetin 1-ci şərti təbiət və iqlim, 2-ci faktoru mədəniyyət, 3-cü faktoru isə dindir.

Cəmiyyətin formalaşmasında qrup və fərdi mentalitetin əhəmiyyəti haqqında ehtimallar çox illər bundan öncə ifadə edilmişdi. Hələ 18-ci əsrdə alman tarixçisi, filosofu Y.Q.Herdern yazırdı ki, "Milli ruh (müasir izahda milli mentalitet) hər bir ölkənin inkişafı üçün hərəkət edən stimuldur" [6,302 ]. E.Fromm hesab edirdi ki, sosial xarakter (bizim anlayışımıza uyğun olaraq mentalitet) sosial proseslərin izahında həlledici rol oynayır [7,443 ]. Professor Zahid Orucova görə "Tarixin əsil həlledici gücü ordu, iqtisadiyyat deyil, dövrün düşüncə tərzidir... Cəmiyyəti həmişə tarixin müəyyənləşdirdiyi düşüncə tərzi "idarə edir" [8,18 ].

Deyilənlər əsasında güman etmək olar ki, cəmiyyətin əsas ziddiyyətlərini mentalitet və sosial münasibətlər arasında olan ziddiyyətlər təşkil edir. Cəmiyyətdəki dəyişikliklər onun kiçik bir hissəsini təşkil edən intellektual elita vasitəsilə təmin olunur, geniş ictimaiyyət

yenilikləri qavramaqda, qəbul etmək və reallaşdırmaqda müəyyən qədər gecikir. Şəxsiyyət nə qədər geniş miqyaslı olarsa, onun sosial toplumun mentalitetinə təsiri də böyük olar. Yeni din yaradıcılarının – Konfutsi, Budda, İsa Məsih, Məhəmməd peyğəmbərin kütlələrin mentalitetinə təsiri nəzərəçarpacaq dərəcədədir. Onların fəaliyyəti yeni mədəniyyət növlərinin başlanğıcını qoydu. Mədəni yenilik mental xüsusiyyətlər şəklində əvvəlcə ayrı-ayrı fərdlərdə dövrün problemlərinin vacib həlli kimi yaranır, sonra möhkəmlənərək dayanıqlı hala keçir. Fərdin mental xüsusiyyətlərinin ictimai mentalitetə çevrilməsi çətin və mürəkkəb prosesdir. O, mübarizə, müvəqqəti anlaşılmazlıq, novatorların təqibi ilə müqayisə oluna bilər.

Cəmiyyətin inkişafında çoxlu hərəkətverici qüvvələr var: maddi nemətlərin istehsal üsulunda, mədəniyyətdə və təhsildə, texnika və texnologiya sahəsindəki elmi biliklərin istehsalında və s. dəyişikliklər bu qəbildəndir. Amma çox güman ki, bu amillərin içərisində ən önəmlisi mentalitetdəki dəyişikliklərdir və bu dəyişikliklər cəmiyyətin siyasi, iqtisadi, sosial və mənəvi sferasında insan fəaliyyətinin yeni təzahürlərini törədir. Həddindən artıq mental fərqlər ayrı-ayrı xalqlar, bütünlükdə bəşər sivilizasiyası üçün təhlükə törədir. Qloballaşma prosesində sosiumların qarşılıqlı fəaliyyətinin gücləndirilməsi zamanı xalqların mentalitetində fərqlər münaqişələrin kəskinləşməsinə səbəb ola bilər. Ona görə də qloballaşma prosesi mentalitetlərin yaxınlaşması və onlar arasındakı fərqlərin aradan qaldırılması proqramını təkidlə tələb edir. Bu məsələdə ehtiyatla davranmaq lazımdır. Mentalitet cəmiyyətin, bəşəriyyətin inkişafını ləngitməməklə, hər bir xalqın bəşər sivilizasiyasına inteqrasiyasına mane olmamaqla yanaşı, milli kimliyin, milli yaddaşın genotipinə çevrilməlidir.

**Məqalənin aktuallığı.** Hazırda xalqiarın, xüsusilə azərbaycanlıların milli və ictimai mentalitetinin öyrənilməsi, onun cəmiyyətə təsiri məsələləri sosial fəlsəfənin aktual problemlərindən biridir.

**Məqalənin elmi yeniliyi.** Elmi yenilik ondan ibarətdir ki, hər bir xalqın, o cümlədən azərbaycanlıların mentaliteti özünəməxsusluğu ilə fərqlənir və problem spesifik olaraq tədqiq olunmuşdur.

**Məqalənin praktiki əhəmiyyəti və tətbiqi.** Məqalədən fəlsəfə sahəsilə məşğul olan mütəxəssislər, tələbələr və magistrlər istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Леви-Брюль Л. Первобытное мышление. М., 1930 и 1980; СПб., 2002 (под названием «Первобытный менталитет»). М., 2012.

2. Троттер У. Инстинкты стада во время войны и мира» (The Instincts of the Herd in Peace and War). 1914; основан на статьях 1908–1909 гг.

3. Dostoyevski F. M. Seçilmiş əsərləri. M., 1983. T.28.K.1.

4. Монтескье Ш. О духе законов // Избр. соч. М., 1955.

5.Шеваков М.Ю. Менталитет: сущность особенности функционирования: Автореф. дис..канд.фил.наук,. Волгоград, 1994.

6. Гердер Й.Г. Идеи к философии истории человечества. М: Наука. 1977.

7. Фром Э. Бегство от свободы: Человек для себя. М:Аст. 2004.571 с.

8. Оруджев З.М. Способ мышления эрохи и принсип априоризма // Вопросы философии, 2006, № 5

**Ф. Джабраилова**

## Роль менталитета в обществе: национальный и общественный менталитет

### Резюме

В предлагаемой статье рассматриваются сущность и происхождение терминов «менталитет», «национальный менталитет», «общественный менталитет». Анализируются основные признаки глобализации и их влияние на менталитет. Особое внимание в статье уделяется анализу влияния менталитета на общество.

**F. Jabrailova**

## The role of mentality in society: national and social mentality

### Summary

The presented article deals with the essence and the origin of the terms “mentality”, “national mentality”, “social mentality”. The main features of globalization and its influence to the mentality are analyzed. The main attention is based on the influence of mentality to society.

**Redaksiyaya daxil olub:** 26.01.2019